# İnklüziv siniflərdə qiymətləndirmə - "Nədir?" və "nə üçündür?"

## İcmal

**Bölmənin məqsədləri:**

- Ənənəvi qiymətləndirmənin inklüziv siniflərdə necə baryer ola biləcəyinin izahı
- İnklüziv siniflər üçün müxtəlif növ qiymətləndirmə üsullarının təqdim edilməsi

**Bölmənin məzmunu:**

- Giriş
- İnklüziv siniflərdə qiymətləndirmə
- İnklüziv siniflərdə qiymətləndirmənin növləri
- Qiymətləndirmə növlərinin təsirləri
- Yekun qeydlər

## Giriş

Təhsilin əlyetərliliyi və keyfiyyətinin artırılması üçün ötən onilliklərdə beynəlxalq və milli miqyasda bir sıra təhsil islahatları həyata keçirilmişdir. Bu islahatlar adətən siniflərdə uşağa fokuslanan pedaqoqikanın tətbiqini özündə əks etdirirdi (həmçinin bu proqramda Bölmə 4.1-ə baxın). Bütün dünya boyu müəllimlər sinif təcrübələrini dəyişərək inklüziv, uşağa fokuslanan və pedaqoqika elementlərini tətbiq etməyə başladı. Lakin bir çox ölkələrdə sinif qiymətləndirmə strategiyaları kifayət qədər yenilənməmişdir. Bu hal müəllimləri ənənəvi, məzmun yönümlü sınaq və imtahanlarda uşaqların yaxşı qiymət almasını təmin etməklə yanaşı innovativ, aktiv və inklüziv tədris strategiyalarının istifadəsi zamanı çətin vəziyyətdə qoyur. Bölmə 4.3-də inklüziv siniflərdə şagirdlərin qiymətləndirilməsi dedikdə nəyi nəzərdə tutduğumuz və inklüziv təhsili dəstəkləyən hansı strategiya və üsulların olması haqqında daha ətraflı məlumat verəcəyik.

Bölmə 4.6 - 4.8 inklüziv təhsildə qiymətləndirmənin müxtəlif aspektlərini özündə əks etdirir:

- Bölmə 4.6 – Nədir? Nə üçündür?: Əsas diqqət uşaqları niyə qiymətləndirməyimiz, ənənəvi qiymətləndirmə strategiyalarının necə baryer yarada biləcəyi və qiymətləndirmənin başqa hansı növlərinin mövcud olması üzərində cəmlənir.
- Bölmə 4.7 – Necə?: İnklüziv siniflərdə bəzi alternativ üsulları təqdim edir.
- Bölmə 4.8 – Təcrübə: Qiymətləndirmə üçün yeni ideyaların tətbiq edilməsi imkanlarını təmin edir.

## İnklüziv siniflərdə qiymətləndirmə

Dünya miqyasında və Azərbaycanda bir çox müəllimlər hökumət, məktəb rəhbərləri və valideynlər tərəfindən dəstəkləndiyindən, habelə qiymətləndirmənin alternativ üsullarından xəbərdar olmadığından siniflərdə uşaqların biliklərinin qiymətləndirilməsi üçün əsasən ənənəvi strategiyalardan istifadə edir. Ənənəvi qiymətləndirmə strategiyalarında uşaqlar adətən çox vaxt çətin kurikulum mətnlərini əzbərləməli, eləcə də ildə bir və ya iki dəfə yazılı və ya şifahi sınaqlar vasitəsilə yaddaşlarında nə qaldığını nümayiş etdirməlidir. Bu yanaşma uşaqların əksəriyyəti üçün baryerlər yaradır.

Ənənəvi qiymətləndirmə strategiyaları uşaqlara öyrəndiklərini nümayiş etdirməyə imkan vermir. Bəzi uşaqlar nəzərdə tutulan bilik hədəflərini doğrultsa da, bunu standart yazılı sınaqlarda ifadə etməkdə çətinliklərlə üzləşir. Paylama materialları B-də hər kəsin iştirakı, bilik və bacaqrıqlarını nümayiş etdirməsini təmin edəcək qiymətləndirmə strategiyalarınıza dəyişikliklər etmək üçün bəzi ideyalar təqdim edilmişdir.

Müntəzəm qiymətləndirmə strategiyalarına dəyişikliklərin edilməsindən başqa inklüziv müəllimlər, formativ qiymətləndirmə kimi daha ənənəvi strategiyaları innovativ qiymətləndirmə strategiyaları ilə birləşdirir. Bu bəzən davamlı və ya mötəbər qiymətləndirmə də adlandırılır. Formativ qiymətləndirmə müəllimləri şagirdlərin öyrənilənləri necə qavramasına dair cari informasiya ilə təmin edir. Bu da nəticə etibarilə müəllimlərin hər kəsin öyrənməsini təmin etmək üçün təcrübələrini daimi olaraq tənzimləmələrinə şərait yaradır.

## İnklüziv siniflərdə qiymətləndirmə növləri

"Paylama materialları D"-də summativ və formativ qiymətləndirmə strategiyaları arasında fərqi göstərən icmal təqdim edilmişdir. Hər iki qiymətləndirmə inklüziv siniflərdə müəyyən dərəcədə istifadə oluna bilər. Lakin bir çox hallarda formativ qiymətləndirmədən istifadə edilir, belə ki, bu qiymətləndirmə müəllim və şagirdlərə hər kəsin öyrənməsini təmin etmək üçün təcrübələrini daimi olaraq tənzimləmələrinə şərait yaradır. Sözügedən metod həmçinin uşaqların öyrəndiklərini nümayiş etdirmək üçün bir neçə üsul təqdim edir. Bu inklüziv siniflərdə çox vacibdir. Summativ qiymətləndirmə istifadə edildikdə (məsələn, biliklərin qiymətləndiriməsi üçün imtahanlar və ya daha standart sınaqlar) müəllimlərin hər bir şagirdin iştirakını təmin etməsi zəruridir. "Paylama materialları D"-də buna dair nümunələr qeyd edilmişdir. Habelə nəzərə almaq lazımdır ki, rəqəm və ya hərflərlə qiymətləndirilən summativ qiymətləndirmə sınaqları yaxşı nəticə göstərə bilməyən şagirdlərin ruhdan düşməsinə və təhsildən kənarlaşmasına səbəb ola bilər. Aztəminatlı ailələrdən olan uşaqlar bu növ risklərə ən həssas qruplardır.

## Qiymətləndirmə növlərinin təsirləri

"Paylama materialları G"-də öyrənmə, tədris, kurikulum və şagirdlər üzərində ənənəvi və summativ qiymətləndirmə strategiyalarının təsirlərinin ümumi icmalı təqdim edilmişdir.

## Yekun qeydlər

Bölmə 4.6 - 4.8-də inklüziv qiymətləndirmədən bəhs edilir. Bölmə 4.6 – təlim sessiyasında əsas diqqət şagirdlərin qiymətləndirilməsində "nədir? və nə üçündür?" suallarının cavablandırılmasına yönəldilmişdir. Biz burada bildiyimiz və ya artıq istifadə etdiyimiz qiymətləndirmə üsullarını təqdim etmişik. Habelə tədris və biliklərə yiyələnmə, ünsiyyət və öyrənmə prosesinin qiymətləndirilməsinin təkmilləşdirilməsi üçün müəllim və şagirdlərin özünütəhlili üzrə məlumatların toplanması daxil olmaqla qiymətləndirmənin əsas məqsədi müzakirə edilmişdir. Biz qiymətləndirmənin müxtəlif növlərini təqdim etmişik. Bura əsas diqqəti "öyrənmənin qiymətləndirilməsi" üzərində cəmləyən summativ qiymətləndirmə və "öyrənmə üçün qiymətləndirmə" və ya "öyrənmə qismində qiymətləndirmə" üzərində fokuslanan formativ qiymətləndirmə daxildir. Biz burada ənənəvi qiymətləndirmənin uşaqlar üçün necə baryer ola biləcəyi və onun daha inklüziv olması üçün qiymətləndirmənin necə tənzimlənə biləcəyini müzakirə etmişik.

Növbəti bölmədə (Bölmə 4.7) inklüziv siniflərdə qiymətləndirmənin necə həyata keçiriləcəyini təqdim etmişik. Bu bölmə qiymətləndirmənin universal dizaynı üzrə xüsusi üsul və məsləhətləri özündə cəmləyir. Son qiymətləndirmə sessiyası - Bölmə 4.8-də bütün öyrəndiklərimizi bir yerdə toplayaraq qrup tapşırığı təqdim etmişik.

## Paylama materialları, Bölmə 4.6 – İnklüziv siniflərdə qiymətləndirmə - Nədir? Nə üçündür?

**Paylama materialları A: Şagirdin qiymətləndirilməsi – Nədir? Nə üçündür?**

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.6 – İnklüziv siniflərdə qiymətləndirmə, “Nədir? Nə üçündür?”
Fəaliyyət 4.6.1 – Beş sevimli

### Şagirdin qiymətləndirilməsi nə deməkdir?[i]

Şagirdin qiymətləndirilməsi təhsil qərarlarının qəbul edilməsi üçün öyrənənin naliyyətləri barədə məlumatların toplanması prosesidir.

### Şagirdləri nə üçün qiymətləndiririk?

Qiymətləndirmə həm müəllim, həm də şagirdləri tədris prosesinə dair məlumatlarla təmin edir. Bu məlumatlar həm tədris, həm də öyrənmə prosesinin keyfiyyətinin təkmilləşdirilməsində istifadə edilə bilər. Davamlı qiymətləndirmə aşağıda göstərilən müxtəlif hallarda istifadə edilə biləcək zəngin məlumat toplusunu təmin edir:

- Müəllimin özünütəhlili: Bütün şagirdlər nəzərdə tutulan biliklərə yiyələnə bilirlərmi? Dərs planı nəzərdə tutulan tədris nəticələrini dəstəkləyirmi? Kim üçün nə yaxşıdır və nə yaxşı deyil? Fənni tədris etmək üçün daha yaxşı üsul varmı?
- Şagirdin özünütəhlili: Mən necə öyrənirəm və ya qavrayıram? Daha nələri öyrənmək istəyirəm? Buna necə nail ola bilərəm?
- Valideynlərlə ünsiyyət: Şagird məktəbdə necə öyrənir? Şagird evdə necə öyrənir? Məktəb, şagird və müəllimlərin gözləntiləri nədir? Evdə öyrənməni məktəbdə öyrənmə ilə necə əlaqələndirə bilərik?
- Naliyyətlərin qiymətləndirilməsi: Şagird qarşısına qoyulan tədris naliyyətlərini nə dərəcədə yerinə yetirib? Şagirdin bu tədris naliyyətlərini əldə etməsini dəstəkləyən müvafiq metodlar hansılardır?

### Şagirdlərin inklüziv qiymətləndirilməsi nədir?[ii]

İnklüziv qiymətləndirmə inklüziv təhsilin təməlində duran prinsiplər və fəlsəfəni dəstəkləyir. Sözügedən metod şagirdlərin bilklərə yiyələnmə imkanlarının genişləndirilməsi ilə yanaşı öyrənənlərin fərdi müxtəlifliyini də nəzərə alaraq təhsilin keyfiyyətinin təkmilləşdirilməsinə öz töhfəsini verir. İnklüziv qiymətləndirmədə istifadə edilən strategiyalar və toplanan məlumatlar yalnız seçim, attestasiya, hesabatvermə və ya müqayisə kimi “ənənəvi” məqsədlərlə istifadə edilməməli, həmçinin bütün təhsil səviyyələrində naliyyətlər və bərabərliyin artırılması üçün daha nəzərəçarpan şəkildə səfərbər edilməlidir.

İnklüziv qiymətləndirmənin əsas elementlərinə daxildir:

- Bütün qiymətləndirmələr başa düşülən və əlaqələndirilmiş olmaqla yanaşı öyrənmə prosesini məlumatlandırmaq və təşviq etmək məqsədini rəhbər tutur;
- Şagirdlər biliklərə yiyələnmələri ilə əlaqəli olaraq qiymətləndirmə prosedurlarına cəlb edilirlər;
- Həm summativ, həm də formativ qiymətləndirmə yanaşmaları daxildir;

- Müvafiq maraqlı tərəflər arasında formativ qiymətləndirmə üçün təlim və dəstəyə sərmaye qoyuluşunun edilməsi;
- Qiymətləndirmədə innovasiyaların edilməsi dəstəklənir; və
- Tədqiqat, nəzəriyyə və təcrübə inklüziv qiymətləndirməni koordinasiya edir və dəstəkləyir.

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.6 – İnklüziv siniflərdə qiymətləndirmə, "Nədir? Nə üçündür?"
Fəaliyyət 4.6.2 – İnklüziv təhsildə qiymətləndirmənin baryer qismində çıxış etməsi

Universal dizaynlı sınaqlar aydın quruluşa malikdir və şagirdlərə sərbəstlik verir. Habelə onlar bütün uşaqlar üçün maksimal şəkildə əlçatan dizayna malik olmaqla əlilliyi olan uşaqlara təsir edə biləcək problemləri minimuma endirir. Bu o deməkdir ki, uyğunlaşma yalnız əlilliyi olan uşaqlar üçün deyil, həmçinin bütün uşaqlar üçün həyata keçirilir. Nəticədə bütün uşaqlar universal dizaynlı sınaqlardan bəhrələnə bilir. Bu sınaqlara müəyyən qruplar üzrə təcrübəyə əsaslanaraq qərəzliliyi azaldılmış, asan və aydın başa düşülən, bütün uşaqların bilik səviyyəsində və ya o səviyyədən aşağı olan suallar, habelə oxunması və başa düşülməsi asan olan diaqramlar daxildir.

| Akkomodasiya növləri | İdeyalar |
|---|---|
| Təqdimatda akkomodasiyalar | Qiymətləndirmənin şifahi oxunması (ya lentə yazılmış səslə və ya yetişkin oxucu tərəfindən oxunması) |
| | Qiymətləndirmənin böyük şriftlərlə yazılması |
| | Böyüdücü vasitələrdən istifadə edilməsi (məsələn, böyüdücü şüşə) |
| | Sınaq sualları üçün jest dilinin idarə edilməsi |
| | Brayl üsulu ilə sınaqlar |
| | Taktil qrafiklərdən istifadə edilməsi (əlilliyi olan uşaqların toxunmaqla hiss edə bildikləri 3-D ölçülü diaqramlar) |
| | Manipulyasiya obyektlərindən istifadə edilməsi (müxtəlif formalı fiqurlar, real qəpiklər, çötkə) |
| | Eşitməyə kömək etmək üçün səs tezliyinin artırılması (danışanlar üçün eşitmə aparatı) |
| | Mətni oxuyanlar üçün kömpyuter ekranları |
| Cavablandırmada akkomodasiyalar | Sualların cavablandırılmasına kömək etmək üçün kompyuter və ya köçürücüdən istifadə edilməsi |
| | Sualların cavablandırılmasına dəstək olmaq üçün köməkçi texnlogiyadan istifadə edilməsi (işarələrin göstərilməsi, kompyuterlər və s.) |
| | Brayl rayterdən istifadə edilməsi |
| | Ayrıca kitabçada qeyd etməkdənsə cavabların birbaşa olaraq sınaq kitabçasında işarələnməsi |
| | İnzibati vasitələrdən istifadə edilməsi (kalkulyatorlar, orqanayzerlər, orfoqrafiyanın yoxlanması proqramları, lüğətlər) |
| Tərtibatda akkomodasiyalar | Diqqət yayınmalarının qarşısını almaq üçün sınağın başqa məkanda keçirilməsi |
| | Sınaqların kiçik qruplarla keçirilməsi |
| | Otaqda işıqlandırılmanın tənzimlənməsi (uşaqların ehtiyaclarına uyğun olaraq daha az və ya daha çox işıqlandırma) |
| | Səs buferlərinin təmin edilməsi (qulaqcıqlar, qulaq tıxacları, eşitmə aparatı) |
| Zamanlamanın akkomodasiyası | Sınağın tamamlanması üçün vaxtın artırılması |
| | Çoxsaylı və ya tez-tez fasilələrin verilməsi |
| | Sınaq ardıcıllığının dıyişdirilməsi (məsələn, həyəcanın azaldılması üçün daha asan mövzuların əvvəldə verilməsi) |

| | |
|---|---|
| | Sınağın bir gündə tamamlanmasının əvəzinə bir neçə gün davam etməsi |

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.6 – İnklüziv siniflərdə qiymətləndirmə, “Nədir? Nə üçündür?”
Fəaliyyət 4.6.3 – Qiymətləndirmənin növləri

| Hal-hazırda istifadə edilən qiymətləndirmə üsulları | Sözügedən üsul qiymətləndirmənin qarşısına qoyduğu məqsədləri ödəyirmi? | Üsul bütün şagirdlər üçün inklüziv və əlçatandırmı? |
|---|---|---|
| | | |

**Paylama materialları D: Qiymətləndirmənin müxtəlif növləri[iv]**

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.6 – İnklüziv siniflərdə qiymətləndirmə, "Nədir? Nə üçündür?"
Fəaliyyət 4.6.3 – Qiymətləndirmənin növləri

| | Summativ qiymətləndirmə | Formativ qiymətləndirmə | |
|---|---|---|---|
| Hədəf | Öyrənilənlərin qiymətləndirilməsi | Öyrənmə üçün qiymətləndirmə | Öyrənmə qismində qiymətləndirmə |
| Məqsəd | Səriştənin ölçülməsi və göstərilməsi; məktəb rəhbərliyi, hökumət və cəmiyyət qarşısında cavabdehlik; qiymətlə əlaqəli qərarın verilməsi | Şagirdlərin öyrənməsi və təkmilləşməsinə kömək edilməsi; şagirdlərin qarşısına qoyulan biliklərə yiyələnmə hədəflərinə nail olmasına dəstək | Öyrənmək üçün öyrənmə, şagirdlərə öz öyrənmək proseslərinə nəzarət etməsinin öyrədilməsi |
| Fokus | Seleksiya, qiymətləndirmə, attestasiya, naliyyətlər, peşəkar tanınma, standartların saxlanması | Əks əlaqə, motivasiya, rəhbərlik, öyrənməyə dəstək | Özü və yaşıdları tərəfindən qiymətləndirmə, əks etdirmə, şagirdlərin öz hədəflərini müəyyən etməsi, öyrənmək üçün məsuliyyətin stimullaşdırılması |
| Nə vaxt | Tapşırıq, bölmə və proqramın sonunda; aralıq və yekun imtahanlar | Nə vaxt ehtiyac olarsa; tədris prosesi zamanı | Tədris prosesi zamanı |
| Müəllimin rolu | Şagirdlərin qarşısına qoyulan biliklərə yiyələnmə hədəfləri və standartlarına nail olmasına dair mühakimə yürütmək məqsədilə şagirdlərin öyrənməsi dəlilindən istifadə edilməsi; qiymətlərin verilməsi | Problem və öyrənmə ehtiyaclarının təhlili; əks əlaqənin təmin edilməsi; nəzərdə tutulan nəticə və standartların müəyyən ediməsi; təkmilləşmə üzrə məsləhətlər; motivasiyanın artırılması | Özünüqiymətləndirmə üzrə model və tədris bacarıqları; öyrənmə prosesinin monitorinqi və qeyri-müəyyənlik halları ilə mübarizə aparmaq üçün rəhbərliyin təmin edilməsi |

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.6 – İnklüziv siniflərdə qiymətləndirmə, “Nədir? Nə üçündür?”
Fəaliyyət 4.6.3 – Qiymətləndirmə növləri

**İnklüziv qiymətləndirmədə xüsusi profilli təhsil işçilərinin rolu**

- Dərslərin planlaşdırılması, eləcə də xüsusi uşaqlar və ya uşaqlar qrupu üçün müvafiq tədris hədəfləri və nəticələrinin müəyyən edilməsində ümumi profilli müəllimlərə dəstək
- Dərs planında fərqli tədris nəticələrinin necə əldə edilə biləcəyinə dair təkliflərin verilməsi
- Bütün uşaqlar üçün əlçatan ola biləcək qiymətləndirmə strategiyasının hazırlanmasında ümumi profilli müəllimlərə dəstək
- Hər kəsin iştirakını təmin edə biləcək sınaq və imtahanların nizamlanmasında ümumi profilli müəllimlərə dəstək
- Bütün uşaqların onların qarşısında qoyulan tədris hədəfləri istiqamətində naliyyətlər əldə etməsinə nəzarət etmək məqsədilə şagirdlərin qiymətləndirmə nəticələrini müzakirə etmək üçün ümumi profilli müəllimlərlə müntəzəm olaraq görüşlərin keçirilməsi
- Şagirdlərin qiymətləndirmə nəticələrinə əsaslanaraq bütün uşaqlar üçün təlim və tədrisin təkmilləşdirilməsi yollarının ümumi profilli müəllimlərlə müzakirəsi

**Çoxşaxəli dəstək qrupları ilə birlikdə qiymətləndirmə prosesi üçün ipucları**[v]

- Lazım gələrsə müxtəlif sahələrdən olan mütəxəssislər (məsələn, psixoloq, ümumi profilli müəllim, fizioterapevt, sosial işçi, profpatoloq) dəstək qrupu formalaşdırmalıdır. Onlar qarşılarına ümumi məqsəd qoyaraq şagird, onun ailəsi və sinif müəllimləri ilə birlikdə bütün qrup ilə işə cəlb olunmaqla qarşılıqlı əməkdaşlıq çərçivəsində çalışırmalıdır.
- Qiymətləndirmə əməkdaşlıq və çoxşaxəli iş prinsiplərinə əsaslanmalıdır. Bütün şagirdlərin ehtiyaclarını qarşılayacaq müxtəlifliyin əldə edilməsinin ən yaxşı yolu inklüziv təhsilə cəlb olunan bütün iştirakçıların qarşılıqlı əməkdaşlığı və ümumi tədris təcrübəsinin əldə edilməsinə yönəlmiş inklüziv prosesin dəstəklənməsidir. Qiymətləndirmə bu ümumi tədris prosesinə yardım etməlidir.
- Çoxşaxəli qrupda çalışan mütəxəssisin hansı sahəni (tibbi, psixoloji və ya sosial) təmsil etməsindən asılı olmayaraq əlilliyi olan uşaqlarla əlaqəli qiymətləndirməsində nəzərə alınmalıdır: sırf kəmiyyət metodları ilə müqayisədə keyfiyyət metodlarına üstünlük verilməsi, qiymətləndirmənin daha geniş təlim prosesinin bir hissəsi olması, eləcə də təlim və tədrisi məlumatlandırmağı hədəfləməsinə əsaslanmaq.
- Çoxşaxəli dəstək qrupunun mütəxəssisləri diaqnozun nəticəsi olaraq şagirdi qiymətləndirmə və kateqoriyalara ayırmanın çatışmazlıqlarını nəzərə alaraq şagirdlərin fərdi ehtiyaclarının effektiv və xüsusi “diaqnozu” arasında balansın olmasını təmin etməlidir.

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.6 – İnklüziv siniflərdə qiymətləndirmə, "Nədir? Nə üçündür?"
Fəaliyyət 4.6.3 – Qiymətləndirmə növləri

## Keys

**Filippində "Uşaqlar üçün Ümumtəhsil Məktəbi üzrə İcma"-dan olan təcrübəli müəllim Marissa J. Paskual ilə müsahibə.**

**Suallar:**

- Qiymətləndirməni necə aparırsınız?
- Qiymətləndirmə işinin sonrakı təlimlərə inteqrasiyasını necə həyata keçirirsiniz?
- Fokusda dəyişikliklərin edilməsi sizin üçün nəyi ifadə edir?

Mən adətən şagirdlərimin mövcud səviyyələri haqqında müxtəlif yollarla ətraflı məlumat toplamaq məqsədilə dərslərin ilk bir neçə həftəsindən maksimum yararlanmağa çalışıram.

### Müşahidə

İllər ərzində öyrəndim ki, bir çox mühüm informasiya sadə müşahidə yolu ilə əldə edilə bilər. Bu dəyərli informasiya mənə şagirdlərimin ehtiyacları və bacarıqlarına uyğun gələn fəaliyyətlərin və düzgün fərdi hədəflərin müəyyənləşdirilməsi zamanı çox yardımçı olur. Mən adətən uşaq və ya bir qrup uşaqda nəyi müşahidə edəcəyimə dair həftəlik siyahı tərtib edirəm. Həftəlik diqqət mərkəzində olacaq məsələni bilməyim fəaliyyətlərimi planlaşdırmağa və müşahidə rejimimi müəyyənləşdirməyə imkan yaradır. Nəyi müşahidə etməyi və nə vaxt müşahidə etməyi bilmək mənə işimi daha sistematik və səmərəli görməyə kömək edir.

İlk həftələrdə mən həmişə uşaqları müxtəlif kitab oxuma vəziyyətlərində: səssiz oxu zamanında müstəqil şəkildə, ədəbiyyat qrupunda digər uşaqlarla birlikdə, sinifdə şifahi şəkildə və ya həmyaşıdlarına və ya yaşca böyüklərə oxuma və müəyyən mövzu ilə bağlı xüsusi məlumatları araşdırmaq üçün oxuma zamanı müşahidə etməyə böyük əhəmiyyət verirəm. Bu, mənə şagirdlərimin mətndən qısa məna çıxarma, mövzuda yeni və çətin başa düşülən söz tapan zaman uyğunlaşdırma strategiyalarını tətbiqetmə (şəkillər və ya kontekst ipucları, cümlənin quruluşu və əvəzedicilərdən istifadə kimi), öz səhvlərini düzəltmə və oxuduqları mövzuya tənqidi yanaşma qabiliyyətləri haqqında məlumat toplamağa imkan verir.

Bu cür ilkin müşahidələr mənə həmçinin uşağın oxuma haqqında düşüncələrini və onun özünü bir oxucu kimi necə görməsini anlamaqda da kömək edir. İlin əvvəlində mən onlardan bir sorğuya cavab vermələrini də xahiş edirəm ki, bu sorğu nəticəsində onlar oxuduqlarına qarşı öz yanaşmaları ilə birlikdə özlərini bir oxucu kimi necə gördüklərini də əks etdirirlər.

### Qrammatika, orfoqrafiya, söz ehtiyatı, yazı mexanizmləri üzrə diaqnoz sınaqları

Bu qiymətləndirmələrin nəticələri, müşahidələrim nəticəsində əldə etdiyim məlumatlarla birlikdə, əvvəlcədən yay ayları ərzində sinif üçün hazırladığım kurikulumda hansı dəyişikliklərin edilməli olduğunu görməkdə mənə kömək edir. Bu, mənə bütün sinifə və ya xüsusi uşaqlar qrupuna növbəti həftələrdə keçməli olduğum dərsləri müəyyən etməyə imkan verir.

**Birinci ayın yazı nümunələri**

Şagirdlərin ilkin yazı nümunələri onların hazırki yazı bacarıqları haqqında ətraflı məlumat toplamağa yardımçı olur. Onların ilk yazı işləri əsasən yaradıcı yazı fəaliyyətləri zamanı və digər mövzular üzrə araşdırma apardıqdan sonra hazırladıqları qısa hesabatlar əsasında ortaya qoyulan nəticələrdir. Yenə qeyd edim ki, bu mənə birinci rübdə uşaqları qruplaşdırmağa yardım etdiyi kimi, hansı dərslərə üstünlük verməli olduğumu göstərməkdə də yardımçı olur.

İl ərzində mən həm rəsmi, həm də qeyri-rəsmi qiymətləndirmə metodlarından istifadə edirəm. Qeyri-rəsmi üsullar adətən gündəlik sinif və məktəb fəaliyyətlərinə daxil edilir. Mənim hər gün təmin etdiyim hər bir tədris-təlim fəaliyyətləri şagirdin tapşırığı tamamlama və göstəriş hədəfini yerinə yetirmə bacarığını qiymətləndirmə prosesini əhatə edir.

Şagirdlərimin ehtiyacları və qabiliyyətləri kimi onların işi həyata keçirmə səviyyələri də fərqlənir ki, sinifdə həyata keçirəcəyim aktivlikləri və dərsləri planlaşdıran zaman bütün bunları nəzərə almaq olduqca mühüm əhəmiyyət daşıyır. Mən verilən tapşırıq üzərində işləyərkən və ya fəaliyyətdə iştirak zamanı həm prosesin özünü, həm də şagirdimin göstərdiyi nəticələri müşahidə edirəm. Məsələn, qısa dərslərdən sonra verilən balaca çalışmaların nəticələrinə baxmaq müəyyən anlayışı fərqli metod istifadə etməklə yenidən öyrətməli olduğum, yoxsa uşağa dərslə əlaqəli çalışmanı yerinə yetirmək üçün daha çox vaxt verməli olduğum barədə mənə fikir verir. Yazı nümunələrinin üzərindən keçmək mənə həmçinin uşaqların sinifdə öyrəndikləri qrammatik qaydaları tətbiq edə bilib-bilmədiklərini görmək üçün imkan yaradır. Yenə bu da öz növbəsində sonrakı təlim təcrübələri və strategiyaları barədə qərar vermə proseduruna xidmət edir.

Sinifdə həmçinin rəsmi qiymətləndirmə metodlarından da istifadə edirəm. Buraya Rüblük qiymətləndirmə həftəsində olan sınaq testlərindən əlavə, qısa test və suallar, fərdi tapşırıq və layihələr (yazı layihələri və araşdırma sənədləri) və qrup işləri aiddir.

Şagirdin nailiyyət səviyyəsi və məktəb fəaliyyəti həmişə həm qeyri-rəsmi qiymətləndirmə, həm də daha rəsmi və dövri qiymətləndirmənin kombinasiyasına əsaslanır. Bu mənada qiymətləndirmə kumulyativdir. Mən burada həmçinin şagirdimin öz potensialı əsasında təlim-tədris prosesinə olan qatqılarını da nəzərə alıram. Hər bir rübdən sonra sinfimdə olan hər bir uşağın güclü tərəfləri və ehtiyaclarını ümumiləşdirirəm. Hər bir uğurlu rüb üçün yeni məqsədlər müəyyən edirəm və məqsədlərimə nail olmaq üçün mənə yardım edə biləcək yeni fəaliyyətlər planlaşdırıram.

**Keys üzrə suallar**

- Qiymətləndirmənin hansı növləri ilə tanış oldunuz?
- Hansı qiymətləndirmə üsullarını müəyyən etdiniz?
- Xanım Marissa Paskual sinfindəki uşaqları nə üçün qiymətləndirirdi?
- O, müxtəlif qiymətləndirmə strategiyalarının nəticələrini necə istifadə edirdi?
- Hansı xüsusiyyətlərinə görə xanım Marissa Paskualın qiymətləndirmə strategiyası inklüziv siniflər üçün münasibdir?

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.6 – İnklüziv siniflərdə qiymətləndirmə, "Nədir? Nə üçündür?"
Fəaliyyət 4.6.4 – Qiymətləndirmə növlərinin müvafiqliyi

Bəzi pedaqoqlar ənənəvi qiymətləndirmə strategiyalarının (summativ, sessiyanın və ya ilin sonunda olan yazılı və standartlaşdırılmış sınaqlar) təlim, tədris, kurikulum və şagirdlər üzərində mənfi təsirlər yarada biləcəyini irəli sürür.

| | |
|---|---|
| Tədrisə mənfi təsir | Ənənəvi testlər və imtahanlar bizim onların nəyi xatırlamalı olduğu fikrinə əsasən şagirdlərin nəyi xatırladığını açıqlasa da, burada təlimin əsas məqsədi, mənası və faydasının üzə çıxmadığını görürük. Bu cür yoxlama qiymətləndirmənin məhdud (yalnız çox dar akademik keyfiyyətlər qiymətləndirilir), "qəfil ölüm" (namizədlər yalnız özlərinin qısa imtahan dövründə etdiklərinə görə qiymət alırlar) və qeyri-informativ (verilən qiymət namizədin nəyi bildiyini və nəyi edə bildiyini əks etdirmir) formalarını təmsil edir. |
| Kurikuluma mənfi təsir | İmtahanlar əsas ağırlığın faktiki məlumatları xatırlama və mexaniki əzbərləmə üzərində olmasını vurğulayır. Nəticədə, onlar müəllimləri şagirdlərə daha geniş və yüksək səviyyədə və anlaşıqlıqda dərs deməyə cəsarətləndirmək əvəzinə, uşaqlara sadəcə dar çərçivəli test etmə bacarığını aşılamağa yönəldə bilər. Belə ki, şagirdlər nəzərdə tutulan təlim hədəflərinə nail olmadan onlara imtahanları uğurla keçməkdə kömək edəcək problemlərin həll edilməsi strategiyalarını hazırlayır. |
| Müəllimlərə mənfi təsir | Test nəticələrinin məktəbləri təsvir və mühakimə etməkdə əsas mənbə olması səbəbindən müəllimlər arasında "test-sevər" tədris proqramı ictimai utanc və təhqirdən yayınma üçün bir vasitəyə çevrilmişdir. Nəticədə bir çox müəllimlər test nəticələrini yüksəltmək üçün hətta mübahisəli, əsaslı arqumentlərə əsaslanmayan təcrübələrdən də istifadə etməyə can atır. |
| Şagirdlərə mənfi təsir | Bu cür qiymətləndirmə prosesinin arzuolunmayan təsirlərindən biri də şagirdləri kateqoriyalara ayırmaqdır ki, bu da şüuraltında şagirdin nailiyyətlərinin məhdudlaşmasına səbəb ola bilər. Müəllimin uşaqdan gözləntiləri az olduğu zaman onun performansına aktiv şəkildə maneə törədəcək bir əməl həyata keçirməsə belə, bu cür yanaşma şagirdlər arasında özünə qarşı etinasızlıq hallarına gətirib çıxara bilər. Bütün şagirdləri daha çox işləməyə və öyrənməyə davam etməyə təşviq etmək əvəzinə, bu cür mühit onları ruhdan sala və effektiv şəkildə sistemdən kənarlaşmalarına yol aça bilər. |

**Düşündürücü suallar**

- Şagirdlərin ənənəvi qiymətləndirilməsində bu tənqidlərlə razısınızmı? Hansı bəndlə razı, hansı ilə razı deyilsiniz? Nə üçün?
- İnklüziv siniflərdə formativ qiymətləndirmə bu çətinlikləri aradan qaldırmaq üçün necə kömək edə bilər?

Paylama materialları H: İnklüziv qiymətləndirmə üçün ipucları

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.6 – İnklüziv siniflərdə qiymətləndirmə, "Nədir? Nə üçündür?"
Fəaliyyət 4.6.5 – Tapşırıq

## İnklüziv siniflərdə qiymətləndirmə aparmaq üçün 10 məsləhət (ipucu)[viii]

### 10. Kurikulumda dəyişikliklər etmək məqsədi ilə qiymətləndirmə məlumatından istifadə üçün müəllimlərin əməkdaşlığı

Həm formativ, həm də summativ qiymətləndirmə təlimat materialları və təlim strategiyalarının məqsəd və effektivliyinin əks etdirilməsində istifadə edilə bilər. Qiymətləndirmə məlumatının toplanması və təhlili, eləcə də nəticələrin müzakirəsi, çətinliklərin müəyyən edilməsi və həll yollarının tövsiyə edilməsi üçün bu mövzular ətrafında həmkarlarla əməkdaşlıq həm effektivlik, həm də potensialın artırılmasına təsir edə bilər.

Düşündürücü suallar:

- Qiymətləndirmə nəticəsində ölçülən hədəf götürülmüş təlim məqsədlərini dəstəkləyən tədris materialları və effektiv təlimi dizayn etmək üçün digər pedaqoqlarla necə əməkdaşlıq edə bilərəm?
- Qiymətləndirmə nəticələri / məlumatını dəyərləndirildikdən sonra hansı yollarla təlimat və ya metodiki qərarlarımı uyğunlaşdıra bilərəm?

### 9. Gələcək dərslərin hazırlanmasında summativ qiymətləndirmələrin nəzərə alınması

Summativ qiymətləndirmələr əsas diqqəti təlim həyata keçirildikdən, yəni ilin sonu və ya rüb imtahanları, yekun layihə və ya bölmə icmalından sonra öyrənən tərəfin performansı üzərində cəmləyir. Onlar əsasən hesabatvermə, qiymət haqqında qərar vermə və ya öyrənən tərəflərin performanslarını müqayisə etmə məqsədinə xidmət edir. Summativ qiymətləndirmələr həmçinin tədris strategiyalarının təkmilləşdirilməsi və hədəfə istiqamətlənən təlim mühitlərinin yaradılması üçün də istifadə oluna bilər.

Düşündürücü suallar:

- Şagirdlərimin təlimləri ilə bağlı nəticələri ölçmək üçün hansı summativ qiymətləndirmə metodalarından istifadə edirəm? Əlilliyi olanlar üçün maneələr varmı?
- Summativ qiymətləndirmələrin ölçülməsi nədir və bu məlumatı mənim gələcək didaktik layihələndirməmdə necə istifadə edə bilərəm?

### 8. Qiymətləndirmə məlumatları vasitəsilə şagirdləri özlərinin təliminin təkmilləşdirilməsi prosesinə cəlb edilməsi

Formativ qiymətləndirmə məlumatları, şagirdlərin inkişaf səviyyələri barədə onlara vaxtı-vaxtında və özünəməxsus rəylərin bildirilməsi, eləcə də nəzərdə tutulan səriştələri dəstəkləmək üçün mümkün uyğunlaşdırmalar və ya yeni strategiyalar üçün rəhbərliyin təmin edilməsi vasitəsilə nəzərdə tutulan təlim hədəfləri istiqamətində şagirdlərlərin şəxsi naliyyətləri ilə tanış edilməsi. Bu, şagirdlərə öz maraqlarını fəal şəkildə müdafiə etməsi və biliklərə yiyələnmə prosesləri üzərində şəxsi nəzarəti saxlamasına yardım edir.

Düşündürücü suallar:

- Qiymətləndirmədə vaxtı-vaxtında və qoyulan tədris hədəfləri ilə bağlı rəylər vermişəmmi?
- Şagirdlərə fərdi təlim prosesi və inkişafı qiymətləndirmək üçün imkan vermişəmmi (məsələn mütəmadi yoxlamalar vasitəsilə)?
- Lazımi bacarıqları inkişaf etdirmək və hədəflənmiş təlim məqsədlərinə nail ola bilmək üçün seçimlər, strategiyalar və keçmiş təcrübələr barədə biliklər paylaşmışammı?

### 7. Ədədi və ya hərfi qiymətləndirmələr üçün alternativlərdən istifadə edilməsi

Ədədi və ya hərfi (A, B, C, D, F) qiymətvermə olmasından asılı olmayaraq ənənəvi qiymətləndirmə sistemləri şagirdlərə onların təlimləri və ya təlim hədəflərinə necə nail olmalı olduqları barədə

məlumat vermir. Şagirdləri qiymətləndirmək üçün alternativ vasitələrdən istifadə etmək barədə düşünmək lazımdır. Məsələn bura mənimsəmə dərəcələri aid edilə bilər (Bax: Paylama Materialları I). Müəllimlər yoxlama sualları siyahısı və ya reytinq göstəricilərindən istifadə edə bilər. Qiymət yazmaq əvəzinə, müəllim təlim hədəfinə uyğun olaraq "nəticə bəlli deyil", "başlanğıc", "inkişafda", "müstəqil" kimi qeydlər yaza bilər. Bu cür qiymətləndirmə qeydləri dərsdən və ya fərdi təlim məqsədlərindən asılı olaraq uyğunlaşdırıla bilər. Digər alternativlərə fərdi rəy, şagirdin özünü qiymətləndirməsi, əsas məqamların və təkmilləşdirilməsi lazım olan sahələrin seçildiyi kompleks tədbirlər daxildir.

Düşündürücü suallar:

- Şagirdlərin işlərini necə qiymətləndirməliyəm? Mənim qiymətləndirməm şagirdləri informasiya ilə təmin edərək onların biliklərə yiyələnmə prosesini təkmilləşdirməyə dəstək olurmu?
- Hansı alternativ qiymətləndirmə sistemindən istifadə edə bilərəm? Hansı növ dəstəyə ehtiyacım var?

### 6. Şagirdlərin müxtəlifliyinin çevik qiymətləndirmə vasitəsilə dəstəklənməsi

Əlçatanlığı artırmaq, şagirdin performansını qiymətləndirmək və şagirdlərin mümkün həyəcanlanma hallarını azaltmaq üçün qiymətləndirmədə çevik seçimlər təklif edin. Qiymətləndirmədə çevikliyi təmin etmək üçün "Qiymətləndirmənin uyğunlaşdırılması" – Paylama Materialı B-ni nəzərdən keçirin.

Düşündürücü suallar:

- Qiymətləndirməmin necə təqdim edilməsinə, şagirdlərimin biliklərini necə nümayiş etdirməsinə və ya şagirdlərimin qiymətləndirmə prosesinə necə qoşulmasına dair seçim etmək mümkündürmü?
- Çevik seçimlər ölçülməsinə gərək duyulan təlim hədəflərini hələ də dəstəkləyə bilirmi?

### 5. Qiymətləndirmədə lazımsız maneələri aradan qaldırmaq

Qiymətləndirmələr nəzərdə tutulan təlim hədəfləri ilə əlaqə qurmaqda problemləri olan şagirdlər üçün tez-tez əlavə maneə və ya çətinliklər törədir. Mümkün olduqda ölçmək istədiyiniz təlim hədəfləri ilə əlaqəsi olmayan maneələri aradan götürməyə çalışın.

Düşündürücü suallar:

- Bu qiymətləndirmənin ölçməyi nəzərdə tutduğu hədəf alınmış bacarıq və anlayışlar hansılardır?
- Qiymətləndirməmdə şagirdlərin bildiklərini nümayiş etməkdə qarşılaşdığı çətinliklər nədən ibarətdir?

### 4. Sıx-sıx formativ qiymətləndirmədən istifadə edilməsi

Formativ qiymətləndirmələr hədəflənmiş təlim məqsədlərinə nail olmaqda inkişafı ölçmək üçün davamedici və sürətli yollardan biridir. "Qiymətləndirmənin fərqli üsulları" adlı Paylama Materialı D-də formativ qiymətləndirmə haqqında daha ətraflı məlumat əldə edə bilərsiniz. Formativ qiymətləndirmədən əldə olunan məlumatlar tədris planına dair qərarların qəbul edilməsinə təsir etməlidir. Sözügedən qiymətləndirmədə nəzərdə tutulan tədris hədəflərə nail olmaq üçün hansı təlim mühitinlərinin yardımçı ola biləcəyini müəyyən etməkdə istifadə oluna bilər.

Düşündürücü suallar:

- Formativ qiymətləndirmələrdən əldə etdiyim məlumatlardan gələcək tədris planımı uyğunlaşdırmaq üçün necə istifadə edə bilərəm?
- Əgər şagirdlərim nəzərdə tutulmuş təlim hədəflərinə çata bilmirsə, tədris planımı necə yenidən dizayn edə bilərəm?

### 3. Məzmun bilikləri ilə yanaşı göstərilən səylərin də qiymətləndirilməsi

Təlim prosesində şagirdin göstərdiyi səyi qiymətləndirmək şagirdin öz-özünə təlim prosesini də dəstəkləyə bilər. Səy göstərmə özlüyündə təlim prosesi üçün əhəmiyyətlidir, belə ki, verilən tapşırıqda

resurslardan stetjik istifadə etməyi öyrənmək əhatəli, məqsədyönlü və hədəfə istiqamətlənən öyrənmə üçün imkan yarada bilər.

Düşündürücü suallar:

- Təlim prosesində şagirdin göstərdiyi səyləri necə qiymətləndirirəm?
- Hansı strategiyalar və ya dəstəklər şagirdə qarşısına çıxan maneələrə baxmayaraq öyrənmək üçün səy göstərməyə yardımçı ola bilər?

### 2. Qiymətləndirmə üçün həqiqi imkanların təklif edilməsi

Qiymətləndirmə üçün əlaqəli, həqiqi imkanların təklif edilməsi şagirdlərə faydalı biliyi ötürməyə və təlimin "nə" olduğunu, "necə" baş tutduğunu və "niyə" həyata keçirildiyini başa düşməyə kömək edə bilər. Məsələn, buraya "həqiqi dünya problemi"-nin həll edilməsi, təcrübə, jurnallar, müzakirə və ya inşalar aid edilə bilər.

Düşündürücü suallar:

- Hansı yollarla qiymətləndirmələrim şagirdləri məzmunun həqiqiliyini və aidiyyatını başa düşməyə cəlb edə bilər?
- Şagirdlərə yeni vəziyyətlər və həqiqi təcrübələrdə biliklərini tətbiq etməyə necə imkanlar yarada bilərəm?

### 1. Qiymətləndirmənin təlim hədəfləri ilə uyğunlaşdırılması

Təlimin məqsədləri aydın olduqda, qiymətləndirmələr müəllim və şagirdlərə nəzərdə tutulan məqsədlərə nə dərəcədə yaxınlaşıldığı barədə ölçmə və müşahidə etmə imkanı təmin edir. Qiymətləndimələri təşkil edən zaman təlim hədəflərini nəzərə alsanız, dərsinizdən əldə olunması nəzərdə tutulan hədəfləri ölçməyi təmin edə bilərsiniz.

Düşündürücü suallar:

- Təlim məqsədlərim / hədəflərim aydındırmı?
- Qiymətləndirməm nəzərdə tutulan təlim hədəflərini əks etdirir və ölçürmü? Yaxud qiymətləndirməm vasitəsilə ölçülən əlavə komponent və ya bacarıqlar da mövcuddurmu?

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.6 – İnklüziv siniflərdə qiymətləndirmə, “Nədir? Nə üçündür?”
Fəaliyyət 4.6.5 – Tapşırıq

Qiymətləndirmə meyarları müəllim və ya şagirdlərin özləri tərəfindən təlim və ya tədrisin qiymətləndirilməsi üçün matris şəbəkəsidir. Sözügedən meyarlar təlimi dəstəkləyərək qiymətləndirmə meyarları və nəzərdə tutulan performans standartlarını konkretləşdirir. Onlar inklüziv siniflərdə qiymətləndirmə meyarları və nəzərdə tutulan performans standartlarının şagirdin fərdi təlim hədəflərinə uyğun olmasını təmin etmək üçün fərdiləşdirilməlidir.

Qiymətləndirmə meyarları əsas üç elementdən ibarətdir:
- Təlim hədəflərinin izahını təmin edən meyarlar toplusu
- Ən yüksək və ən aşağı müxtəlif performans səviyyələri arasındakı diapozon
- Hər səviyyəyə uyğun performansı qeyd edən təsvirlər

Riyaziyyat üzrə qiymətləndirmə meyarına dair nümunə[ix]

| Kateqoriya | 4 | 3 | 2 | 1 |
|---|---|---|---|---|
| **Tamamlama** | Mən bütün işləri tamamladım | Mən işlərin çox hissəsini tamamladım | Mən işlərin bəzilərini tamamladım | Mən işlərin yalnız kiçik bir hissəsini tamamladım |
| **Səylər** | Mən bütün işləri tamamlamağa çalışdım | Mən bütün işlərin çox hissəsini tamamlamağa çalışdım | Mən işlərin bəzilərini tamamlamağa çalışdım | Mən işlərin yalnız kiçik bir hissəsini tamamlamağa çalışdım |
| **Anlama** | Mən məsələni bütünlüklə anladım və həll etdim | Mən məsələni demək olar ki, anladım və həll etdim | Mən məsələnin bir hissəsini anladım, lakin onu həll edə bilmədim | Mən məsələni anlamadım |
| **Əsaslandırma** | Məsələni həll etmək üçün yaxşı planım var və onu izah edə bilərəm | Məsələni həll etmək üçün planım var və demək olar ki, onu izah edə bilərəm | Məsələnin bir hissəsini həll etmək üçün planım var, lakin köməyə ehtiyacım var | Məsələni necə həll edəcəyimi bilmirəm |
| **İzahat** | Riyazi düşüncələrimi izah etmək üçün aydın şəkildə sözlər, rəqəmlər, şəkillər və ya qrafiklərdən istifadə edə bilirəm | Məsələni necə həll etdiyimi göstərmək üçün sözlər, rəqəmlər, şəkillər və ya qrafiklərdən istifadə etdim | Bəzi etdiklərimi izah etmək üçün sözlər, rəqəmlər, şəkillər və ya qrafiklərdən istifadə etməyə çalışdım | Məsələni və ya həllini necə izah edəcəyimi bilmirəm |
| **Dəqiqlik** | Cavabımın düzgün olmasına əminəm | Zənnimcə cavabım düzgündür | Deyəsən cavabım düzgün deyil | Cavabımın düzgün və ya |

| | | | | |
|---|---|---|---|---|
| | | | | səhv olmasını bilmirəm |

**Paylama materialları J: Tapşırıq üzrə təlimatlar**

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.6 – İnklüziv siniflərdə qiymətləndirmə, "Nədir? Nə üçündür?"
Fəaliyyət 4.6.5 – Tapşırıq

### Variant A: Ümumi və xüsusi profilli təhsildə ştatlı müəllimlər

- Paylama materialları H, 'İnklüziv qiymətləndirmə üzrə ipucları' və Paylama materialları I 'Qiymətləndirmə meyarları'-nı diqqətlə oxuyun
- Paylama materialları H-dakı düşündürücü suallara cavab vermək və onu müzakirə etmək üçün məktəbdə həmkarlarınızla müzakirə qrupu təşkil edin. Bu təhsil planının hazırlanması və bəzi suallara cavab tapmaq üçün müzakirə qrupuna qiymətləndirmə vasitəsini təmin edir
- Müzakirə qrupunun qeydləri və düşündürücü suallara cavabları növbəti təlim sessiyasına gətirin

### Variant B: Ştatlı müəllimlər

- Paylama materialları H, 'İnklüziv qiymətləndirmə üzrə ipucları' və Paylama materialları I 'Qiymətləndirmə meyarları'-nı diqqətlə oxuyun
- 2 iştirakçıdan ibarət qruplara ayrılın
- Hər bir cütlük ümumi profilli məktəb müəllimi (baxça, ibtidai və y orta təhsil səviyyəsində) ilə iclas keçirməlidir. Veriləcək əsas suallar aşağıdakılardır:
  - Siniflərinizdə hansı qiymətləndirmə metodları və üsullarından istifadə edirsiniz? Nə üçün?
  - Qiymətləndirmə nəticəsində əldə edilmiş məlumatdan necə istifadə edirsiniz?
  - Siniflərinizdəki bəzi şagirdlər qiymətləndirmədə iştirak ilə əlaqəli çətinliklərlə üzləşə bilərlərmi? Nə üçün? Bu çətinlikləri aradan qaldırmaq üçün hansı strategiyaları tətbiq etmisiniz?
- Müsahibənin təhlili, Paylama materialları A, B, C, D, H və I-dən istifadə edərək:
  - Yadınızda qalan qiymətləndirmə üsullarını sadalayın
  - Müəllimin hansı qiymətləndirmə növündən istifadə etdiyini müəyyən edin
  - Qiymətləndirmə strategiyasının daha inklüziv edilməsi üçün bəzi fərdi tövsiyələr hazırlayın

# Bölmə 4.7 – İnklüziv siniflərdə qiymətləndirmə, “Necə?”

## İcmal

**Bölmənin məqsədləri:**

- İnklüziv siniflərdə müxtəlif qiymətləndirmə üsullarının təqdim edilməsi
- Qiymətləndirmə strategiyalarının daha inklüziv edilməsi üçün fikirlərin bildirilməsi

**Bölmənin məzmunu:**

- Giriş
- İnklüziv qiymətləndirmə üsulları
- İnklüziv qiymətləndirmə prosedurlarının hazırlanması üçün ipucları
- Yekun qeydlər

## Giriş

Biz həmişə bunun fərqində olmasaq da, ənənəvi qiymətləndirmə metodları bütün uşaqlara öz biliklərini və nəyi bacardıqlarını nümayiş etdirmək üçün “ədalətli” və ya bərabər imkanlar təmin etmir. Məsələn, yazılı sınaqlar fiziki qüsurları və ya disleksiya kimi öyrənmək imkanları zəif olan uşaqlar üçün olduqca çətindir. Yazılı sınaqlar həmçinin uzun müddət diqqət yayınması yaşayan, əsas da Diqqət Defisiti və Hiperaktivlik Pozuntusundan (DDHP) əziyyət çəkən uşaqlar üçün xüsusilə çətindir. Yazma hərəkəti o qədər enerji ala bilər ki, bu cür uşaqlar bütün sualları əhatə etmək üçün kifayət qədər diqqət ayıra bilməz və bütün yazılı sınağı tamamlamaya bilər. Standart yazılı sınaqlarda tez-tez uğur qazanmadıqdan sonra belə uşaqlarda demotivasiya və ya aşağı səviyyədə özünə inam formalaşa bilər. İnklüziv siniflərdə müəllimlər universal və ya bütün uşaqlar üçün əlçatan qiymətləndirmə texnikasını yaratmağa çalışırlar. Bu cür siniflərdə dərs deyən müəllimlər uşaqların biliklərini qiymətləndirmək üçün rüb və ya il sonunu gözləmirlər. Onlar davamlı olaraq uşaqlara öz biliklərini və bacarıqlarını müxtəlif yollarla nümayiş etdirmək üçün imkanlar yaradırlar. Bu da müəllimlərə dərslərin effektivlik səviyyəsini əks etdirməyə, bütün uşaqların təlimdə tərəqqisini qiymətləndirməyə və bütün uşaqların öyrənməsini həyata keçirmək üçün dərslər, tədris planı, sinifdəki mühit, tədris üslubu və təlim hədəflərində uyğunlaşmanı təmin etməyə imkan verir. Bu cür qiymətləndirməni sonuncu bölmədə biz “formativ qiymətləndirmə” adlandırırıq.

## İnklüziv qiymətləndirmə üsulları

Paylama material B inklüziv siniflərdə istifadə oluna biləcək formativ qiymətləndirmə prosedurlarının bir hissəsini təşkil edən qiymətləndirmə üsullarını təqdim edir. İcmalda bəzi ideyalar əhatə olunsa da, siz bu məsələyə yaradıcı yanaşaraq şagirdlərinizə və dərsinizin məzmununa uyğun olan qiymətləndirmə texnikalarınızı hazırlaya bilərsiniz. İnklüziv qiymətləndirmə haqqında daha ətraflı ipucları üçün Bölmə 4.6-da H və I Paylama Materiallarından faydalana bilərsiniz.

## Yekun qeydlər

“Bu bölmədə biz sizə inklüziv siniflərdə tətbiq oluna biləcək bəzi qiymətləndirmə üsullarını təqdim etmişik. Bunlara aiddir:

- Müşahidələr
- Açıq sonlu suallar
- Yoxlama sınaqları
- İş portfeli
- Biliklərə yiyələnməyə dair qeydlər
- Şagird özünüqiymətləndirməsi

- Yaşıdlar tərəfindən (eyni-səviyyəli) qiymətləndirmə, və
- Meyarlar

Hal-hazırda şagird qiymətləndirilməsinin necə aparılmasını və qiymətlənirməni necə daha inklüziv hala gətirməyin mümkünlüyünü müzakirə etdik. Növbəti təlim bölməsi - Bölmə 4.8 daha çox təcrübi bölmə olacaq və burada biz yeni məzmun təqdim etməyəcəyik. Qeyd edilən bölmədə biz inklüziv sinifdə qiymətləndirməni necə aparmalı sualına praktiki cavab axtaracağıq. Bu sessiyaya hazırlaşmaq məqsədilə sizə yeni tapşırıq veriləcək."

Növbəti bölməyə hazırlıq üçün tapşırıq:

**Variant A: Ştatlı ümumi profilli müəllimlər**
Növbəti təlim sessiyasında dərin müzkirəsini aparmaq istədiyiniz bir dərs planını seçin. Planı yazılı formada özünüz ilə gətirin. Hər hansı dərsdən hər hansı mövzunu əhatə edə bilər. Daha yaxşı olar ki, sizə faydalı olması üçün növbəti illərdə tətbiqini nəzərdə tutduğunuz planı gətirəsiniz. Fəaliyyətlər sizə təlim sessiyasından dərhal sonra tətbiq edə biləcəyiniz qiymətləndirmə strategiyalarının yaradılmasında yardımçı olacaq.

**Variant B: Ştatlı xüsusi profilli müəllimlər**
*Situasiya B.1: adi məktəblərdə əlilliyi olan uşaqlara yardımçı olan xüsusi profilli müəəlimlər:*
Əsas təhsildə yardımçı olduğunuz bir uşağı seçin. Onunla növbəti təlim sessiyasında daha dərindən araşdırmağı planlaşdırdığınız dərsi müzakirə edin. Uşaq haqqında məlumat vərəqini gətirin (əgər bu mümkün deyilsə, uşağı qrupa tanıtmaq üçün heç bir ad çəkmədən onu qısaca təqdim edin). Özünüzlə həmçinin yazılı planı gətirin. Sinifdə olan fərqli uşaqlar üçün müəyyənləşdirdiyiniz fərqli hədəfləri burada əks etdirin.

*Situasiya B.2: adi məktəblərdə hələ əlilliyi olan uşaqlara yardımçı olmayan xüsusi profilli müəəlimlər:*
Növbəti təlim sessiyasında dərin müzkirəsini aparmaq istədiyiniz bir dərs planını seçin. Planı yazılı formada özünüz ilə gətirin. Hər hansı dərsdən hər hansı mövzunu əhatə edə bilər. Daha yaxşı olar ki, sizə faydalı olması üçün növbəti illərdə tətbiqini nəzərdə tutduğunuz planı gətirəsiniz. Fəaliyyətlər sizə təlim sessiyasından dərhal sonra tətbiq edə biləcəyiniz qiymətləndirmə strategiyalarının yaradılmasında yardımçı olacaq.

**Variant C: Namizəd müəllimlər**
Paylama Materialları C və D-də əks olunan keyslərə nəzər yetirin.

## Paylama materialları Bölmə 4.7 – İnklüziv siniflərdə qiymətləndirmə, "Necə?"

**Paylama materialları B: Qiymətləndirmə üsulları**
Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.7 – İnklüziv siniflərdə qiymətləndirmə, "Necə?"
Fəaliyyət 4.7.2 – Hansı üsullardan istifadə edə bilərsiniz?

| Nə[x] | Necə |
|---|---|
| Müşahidələr | Uşaqların fəaliyyətlərinə dair faktiki və qərəzsiz qeydiyyatın aparılması |
| Açıq sonlu suallar | Uşağın özünü ifadə etmək qabiliyyəti və konkret vəziyyətdə necə davranacağını qiymətləndirmək üçün fəaliyyətlər zamanı açıq sonlu sualların verilməsi |
| Yoxlama sınaqları | Faydalı təlim imkanlarının təmin edilməsi məqsədilə uşağın artıq nəyi bildiyini və nə edə biləcəyini aşkar etmək üçün qısa şifahi və yazılı sınaqlar. Bura sual-cavablar, yoxlama sualları siyahısı və ya sinif testləri daxil edilə bilər. |

| | |
|---|---|
| İş portfeli | İş portfelinə uşağın yerinə yetirdiyi tapşırıqlardan nümunələr daxildir (yazılı nümunələr – inşalar, hekayələr və hesabatlar; illüstrasiyalar – şəkillər, xəritələr, diaqramlar, riyazi cədvəllər və s.). Həmçinin uşaqların sinif şurasında öhdəçiliklər götürmək kimi qeyri-dərs fəaliyyətləri də qeyd edilə bilər. İş portfelləri uşağın nəyi və necə öyrəndiyini göstərir. Burada əsas diqqət uğuzsuzluqlarla müqayisədə naliyyətlər üzərində cəmlənir. Məsələn, uşaq iş portfelində nəyi qeyd etməyə qərar verməklə qiymətləndirməyə cəlb oluna bilər. Habelə iş portfeli uşağın müəyyən zaman kəsiyində naliyyətlərini qiymətləndirmək üçün istifadə edilə bilər (uşaqların nəticələrinin bir-biri ilə müqayisə edilməsinin əvəzinə). İş portfeli təlim-tədris naliyyətləri üzrə uşaq və onların valideynləri ilə müzakirələrin aparılması üçün əsas kimi çıxış edir. |
| Biliklərə yiyələnməyə dair qeydlər | Eynilə iş portfeli kimi uşağın biliklərə yiyələnməsini əks etdirən yazılı sənədlər və şəkilləri izah edən qiymətləndirmə formasıdır. Bu üsulda qiqqət səhv və ya zəif nöqtələr üzərində cəmlənmir. Burada təlim çox zaman hər bir uşaq üçün fərdi şəkildə olmaqla müxtəlif yollarla həyata keçirilir. Uşaqlar və valideynləri adətən uşağın təlim prosesinin sənədləşdirilməsinə cəlb edilir. |
| Şagird özünüqiymətləndirməsi | Şagirdlər öz biliklərə yiyələnmə prosesləri və məhsullarını qiymətləndirmək üçün cəsarətləndirilir. Əsas məqsəd şagirdlərin özünü mühakimə qabiliyyətinin inkişaf etdirilməsidir. Özünüqiymətləndirmə biliklərə yiyələnmə prosesi üzərində sahiblik hissini gücləndirərək şagird tərəfindən daha çox “sərmaye” qoyuluşuna səbəb olur. |
| Yaşıdlar tərəfindən (eyni-səviyyəli) qiymətləndirmə | Yaşıdlar tərəfindən qiymətləndirmə birgə öyrənmə texnikasının bir növü olmaqla şagirdlərin öz yaşıdlarının işlərini qiymətləndirməsi, eləcə də öz işlərinin yaşıdları tərəfindən yoxlanmasından ibarətdir. Özünüqiymətləndirmə kimi yaşıdlar tərəfindən qiymətləndirmə də biliklərə yiyələnmə üzərində sahiblik hissini gücləndirərək şagirdlərin bir-biri ilə təcrübə mübadiləsinə söykənən öyrənmə prosesinə əsaslanır. Şagirdlərin bir-birinə konstruktiv tənqidlərini bildirməsini dəstəkləmək və eyni zamanda prosesə yaxından nəzarət edərək konfliklərin yaranmasının qarşısını almaq çox böyük əhəmiyyət kəsb edir. |

**Paylama materialları C: Qiymətləndirmə üsullarının əks etdirilməsi cədvəli**

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.7 – İnklüziv siniflərdə qiymətləndirmə, "Necə?"
Fəaliyyət 4.7.2 – Hansı üsullardan istifadə edə bilərsiniz?

**Variant A: Ştatlı müəllimlər, ümumi və xüsusi profilli təhsil**

| **Qiymətləndirmə üsullarının siyahısı** (Paylama materialları B-yə baxın və bildiyiniz digər üsulları əlavə edin) | **Siz artıq bu üsullardan istifadə etmisiniz?** (bəzi detallar və nümunələr qeyd edin) | **Sinifdə bu üsulun yoxlanılması üçün sizə nə kömək edəcək?** | **Bu üsul inklüziv siniflərdə biliklərə yiyələnmə prosesini necə dəstəkləyir?** |
|---|---|---|---|
| | | | |

### Variant B: Ştatlı müəllimlər

| **Qiymətləndirmə üsullarının siyahısı** (Paylama materialları B-yə baxın və bildiyiniz digər üsulları əlavə edin) | **Bu üsul adi halda Azərbaycanda istifadə olunur?** | **Bu qiymətləndirmə üsulunun üstünlükləri nədir?** | **Bu üsul inklüziv siniflərdə biliklərə yiyələnmə prosesini necə dəstəkləyir?** |
|---|---|---|---|
| | | | |

## Paylama materialları D: Keys nümunələri – Qiymətləndirmə mədəniyyətinin dəyişdirilməsi[xi]

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.7 – İnklüziv siniflərdə qiymətləndirmə, "Necə?"
Fəaliyyət 4.7.4 – Tapşırıq, Variant C, yalnız Namizəd müəllimlər

### Keys 1: Belçikada "test sistemi"ndən "ətraflı qiymətləndirmə sistemi"nə keçid: nəzəriyyənin praktikaya keçirilməsi zamanı yaşanan çətinliklər

Belçikanın Flamand icmasında ənənəvi "test sistemi"ndən "ətraflı qiymətləndirmə sistemi"nə keçid son zamanlarda əhəmiyyət qazanmışdır. Ətraflı qiymətləndirmə sistemi "aktiv təlim metodları"nın tətbiq edilməsi ilə əlaqəlidir. Bu sistemdə şagirdlər artıq passiv tərəflər kimi qəbul edilmir, onlar nəinki öz fəaliyyətlərinin və inkişaf səviyyələrinin qiymətləndirilməsində, hətta öz sinif yoldaşlarının qiymətləndirilməsində də iştirak edirlər.

Qiymətləndirmənin formativ funksiyası "ətraflı qiymətləndirmə sistemi" çərçivəsində güclü şəkildə ön plana çıxarılır: Belə ki, bu cür qiymətləndirmədə şagirdlərə yalnız mühakimə etmək bacarığı aşılanmır, həmçinin (daha da önəmlisi) uşaqların rəy bildirməsi mexanizminin köməyi ilə bilik, bacarıq və qabiliyyətlərə yiyələnməsi də əsas məqsəd kimi götürülür. Şagirdin irəliləyişi haqqında məlumat vermək onun nail olduqlarını qiymətləndirməkdən daha önəmlidir. Bu o deməkdir ki, qiymətləndirmə davamlı şəkildə həyata keçirilir, çünki həm müəllimlər, həm də şagirdlər effektiv təlim mühiti yarada bilmək üçün fərdi fəaliyyətləri barədə yenilənmiş informasiyaya ehtiyac duyurlar. Tədris prosesinin bir elementi kimi qiymətləndirmə şagirdlərə bütövlükdə öz qabiliyyətlərinin inkişaf etdirilməsində yardım edir: bundan başqa idrak fəaliyyətləri, həmçinin ünsiyyət və hərəkət aspektləri də mütəmadi olaraq qiymətləndirilir

Ətraflı qiymətləndirmə sistemində müşahidə, iş portfeli, təhlil cədvəlləri, özünü qiymətləndirmə və yaşıdların qiymətləndirməsi geniş qiymətləndirmə imkanlarından yalnız bir neçəsidir. Müəllim şagirdi arzuolunan məqsədə yönəltmək üçün hansı qiymətləndirmə metodunun daha uğurlu olduğunu nəzərə almalıdır. Şagirdlərin qiymətləndirilməsi metodları reallığı əks etdirən, şagirdin xarakterinə uyğun, şagird aktivliyini təşviqedici və təlim prosesinə inteqrasiya olunmuş şəkildə həyata keçirilməlidir. Ətraflı qiymətləndirmə sistemində müəyyən olunan norma əvvəlcədən müəyyən edilmiş və ya yaşıd qrupları normasından fərdi normaya keçid edir. Müəllimlərdən tələb olunan peşə profili və əsas bacarıqlar müəllimlərin ətraflı qiymətləndirmə sistemini tətbiq etməkdə bacarıqlı olmasını xüsusilə vurğulayır.

Ancaq qeyd etmək lazımdır ki, bu cür dəyişikliyə əks mövqedən yanaşanlar da var. Bəzi müəllimlər, valideynlər və digər maraqlı tərəflər şagirdlərin ümumi biliklərinin azaldığını iddia edir və bunun da səbəbini bacarıqları ön plana qoyan və qabiliyyətlərin inkişafına daha çox diqqət ayıran məktəblərin daha az tələbkar olması ilə əlaqələndirirlər. 2002-ci ildə orta məktəblərdə aparılan araşdırma göstərdi ki, ənənəvi test sistemi hələ də üstünlük təşkil edir. Müfəttişliyin "Təhsil Aynası" adlı 2006-cı il tarixli hesabatının nəticəsinə görə, şagirdlərin tədris prosesində əldə olunan hədəflər və inkişaf məqsədlərində ən zəif zəncir halqasını şagirdlərin qiymətləndirmə təcrübəsi nümayiş etdirib. Özünü qiymətləndirmə kimi yenilikçi metodlar qiymətləndirmə üsullarında demək olar ki, heç tətbiq edilməmişdir. Qiymətləndirmə əsas etibarilə biliyin təkrar istehsalına yönəlib. Bundan əlavə, orta təhsildə istifadə edilən test və imtahanların etibarlığı və tutarlılığının artırılmasına ehtiyac duyulur. Valideyn komitəsinin məlumatlarına əsasən, hansı məzmunun qiymətləndirildiyi və hansı qiymətləndirmə metodlarından istifadə olunacağı çox vaxt qeyri-müəyyəndir.

### Keys 2: Honkonqda summativ və formativ qiymətləndirmə arasında tarazlıq yaratma cəhdi

Honkonqda mövcud ənənəvi qiymətləndirmə strukturu imtahan əsaslı təbiəti ilə əlaqədar tənqid olunmuşdu. Ümumilikdə, burada qiymətləndirmədə müvafiq dəyişikliklər aparılmadan kurikulumda dəyişikliklərin mümkünsüz olması hesab edilirdi. Bu dəyişikliklərdə "öyrənmənin qiymətləndirilməsi ilə müqayisədə öyrənmək üçün qiymətləndirməyə" üstünlük verilir.

2000-ci ildən etibarən Honkonq hökuməti geniş miqyaslı təhsil islahatı həyata keçirmişdir ki, buraya yeni qiymətləndirmə sisteminin təşviqinə dair bir sıra tədbirlər daxil edilmişdir. Keçmişdə olduğu kimi əsas selektiv rolu icra etmək əvəzinə, qiymətləndirmə "təlim və tədrisi inkişaf etdirmək üçün müəllim və şagirdlərə vacib olan informasiyanı təmin etməlidir". Daha da önəmlisi, o, "təlim və tədris üzərində mənfi deyil, müsbət təsir" xüsusiyyətinə malik olmalıdır. Summativ qiymətləndirmə məqsədlərinə xidmət edən balların toplanması, sıralama və qiymətvermə əvəzinə, müəllimlər, valideynlər və şagirdlər arasında şagirdlərin təlim naliyyətlərini aydın şəkildə təsvir edilməsinə artan tələbat vardır.

Buna baxmayaraq, kurikulum və qiymətləndirmədə aparılan ümumilli islahatlar yeni problemlərə də yol açıb. Hökumət yeni qiymətləndirmə prosedurlarının nəticələri əsasında məktəblər haqqında daha geniş informasiya toplaya bilsə də, məktəblər şagirdlər sistemin sınaqlarından çıxa bilmədikdə daha da həssas vəziyyətə düşürdü. Məktəb direktorları və müəllimlər nəticədə məktəbin bağlanmasından narahatdırlar. Yeni qiymətləndirmə proseduru ilk olaraq aşağı dərəcəli olaraq qiymətləndirilmişdi. İndi isə o, bəzi məktəblər tərəfindən yeni ictimai imtahan üsulu kimi qiymətləndirilir. Bir çox məktəblərdə lazımsız məşqlər tətbiq olunur.

## Paylama materialları E: Keys nümunələri – İnklüziv qiymətləndirmənin həyata keçirilməsi [xii]

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.7 – İnklüziv siniflərdə qiymətləndirmə, "Necə?"
Fəaliyyət 4.7.4 – Tapşırıq, Variant C, yalnız Namizəd müəllimlər

### Keys 3: Finlandiyanın ibtidai təhsilində şagird qiymətləndirməsi

Finlandiyanın ibtidai təhsilində müəllimlər və şagirdlər dövlət sınaq sistemi ilə yüklənmirlər. Hər 5 ildən bir hər məktəb bir mövzu üzrə təlim nəticələrinin milli nümunədə qiymətləndirilməsinə daxil edilir. Müəllimlər öz məktəblərinin nəticələri barədə informasiya əldə edirlər, lakin bu nəticələr dərc olunmur və hətta məktəblər bir-biri ilə müqayisə də olunmur.

İbtidai təhsil dönəmində şagirdlər ortaq cəhətlərinə uyğun qruplaşdırılmır və onlar əsasən heterogen (qarışıq) qruplarda təhsil alırlar. Bütün şagirdlər üçün eyni hədəflər müəyyən olunsa da, İbtidai Təhsil Aktı və əsas kurikulum məktəblərdən müxtəlif pedaqoji vasitələrdən istifadə edərək şagirdlərin fərdi ehtiyaclarını və öyrənmə yollarını nəzərə almağı və bütün şagirdlərin təlim prosesini dəstəkləmək məqsədilə tədris məzmununun uyğunlaşdırılmasını tələb edir. Fərdi tədris planlarını hazırlaya bilmək üçün müəllimlərdən bütün şagirdlərin güclü tərəfləri və ehtiyaclarını müəyyən etməsi gözlənilir. Son illərdə, müxtəlif təlim mühitlərinin yaradılması, eləcə də, təşviqedici və interaktiv bir atmosferin formalaşdırılmasına böyük diqqət ayrılmışdır.

İbtidai təhsilə erkən müdaxilə dedikdə  müəllimlərin təlim və naliyyətlərdə qarşılaşdığı problemləri müəyyən edən kimi dərhal həll etməsi deməkdir. Təqribən 2% olmaqla birinci və ya ikinci sinifi təkrarlayanlardan başqa, şagirdlər çox nadir hallarda sinifdə qalırlar; məktəbi tərketmə faizi isə 0.5%-dən aşağıdır. Hər kəsin ən azından ibtidai təhsili tamamlaması üçün sistematik şəkildə geniş miqyaslı tədbirlər kompleksi həyata keçirilir.

### Keys 4: Rumıniyada bəzi inklüziv elementlərə malik şagirdlərin qiymətləndirməsi islahatı

Son illərdə Rumıniya özünün əhatəli və strukturlu təhsil islahatı proqramında nəzərə çarpacaq dərəcədə inkişafa nail olub. İlkin mərhələdə təhsil islahatı aidiyyatı tərəfləri yeni qiymətləndirmə sistemi ilə tanış etdi. Burada ənənəvi metod olan 1-10 bal arası qiymətləndirmə meyara əsaslanan 4 ümumi səviyyə göstəricisi ilə əvəz olundu: çox yaxşı, yaxşı, kafi, qeyri-kafi. Bu göstəricilər hər bir müəllim tərəfindən şagirdin nailiyyətləri barədə mühakimə yürütmək və bu barədə məktəbin hesabat sistemi yolu ilə valideynlərlə ünsiyyət qurmaq üçün istifadə olunurdu. İbtidai təhsilin sonunda rəsmi olaraq imtahan verilmir və 5-ci sinifə keçid adətən avtomatik şəkildə həyata keçirilir. Lakin bununla yanaşı bəzi "elit" şəhər məktəblərində seçim sınaqlarının tətbiq edilməsi kimi artan bir tendensiya da mövcuddur.

Növbəti illərdə orta təhsil səviyyəsində qiymətləndirmə daxili qiymətləndirmənin çəkisində artım və xarici imtahanlara daha az diqqət ayrılması, istifadə olunan qiymətləndirmə metodlarında daha geniş müxtəlifliyin olması və qiymətləndirmə standartları ilə Milli Standartlar tərəfindən müəyyən olunan səriştələr arasında daha güclü bağların yaradılması daxil olmaqla oxşar trendləri əks etdirmək məqsədilə dəyişir. Xüsusilə, şagirdlərin naliyyətlərinin daha əhatəli şəkildə qeyd edilməsi istiqamətində işlər görülür. İndi qarşıda duran əsas çətinlik təlim və tədrisin inkişafı məqsədilə məktəblərə və müəllimlərə bu cür informasiyadan istifadə edilməsində yardım edilməsidir.

**Paylama materialları F: Fərdi təhlil anketi**

Proqram 4 – İnklüziv sinif təcrübəsinin yaradılması
Bölmə 4.7 – İnklüziv siniflərdə qiymətləndirmə, "Necə?"
Fəaliyyət 4.7.5 – Fərdi təhlil

### Variant A: Ştatlı ümumi profilli müəllimlər

| **Fərdi təhlil** | | |
|---|---|---|
| **Ümumi məlumat** | Adı | |
| | Məktəbin adı | |
| | Proqram | |
| | Bölmə | |
| **Mən bu bölmədə nə öyrəndim?** *(Mənim üçün nə yeni idi? Nə yadımda qaldı? Nə daha faydalı idi?)* | | |
| | | |

| **Sinfimdə və ya məktəbdə nəyi sınaqdan keçirə bilərəm?** | |
|---|---|
| Nəyi sınayacağam? | |
| Nə üçün? | |
| Bu mənə tədrisin keyfiyyətini artırmaq üçün necə kömək edəcək? | |
| Bu mənə inklüziv müəllim olmamda necə yardım edəcək? | |
| Bu konsept və ya təcrübəni həyata | |

| | |
|---|---|
| keçirmək üçün mənə necə yardım olacaq? | |

### Variant B: Ştatlı xüsusi profilli müəllimlər

<table>
<tr><td colspan="3">Fərdi təhlil</td></tr>
<tr><td rowspan="4">Ümumi məlumat</td><td>Ümumi məlumat</td><td>Ümumi məlumat</td></tr>
<tr><td>Məktəbin adı</td><td></td></tr>
<tr><td>Proqram</td><td></td></tr>
<tr><td>Bölmə</td><td></td></tr>
<tr><td colspan="3">Mən bu bölmədə nə öyrəndim? (Mənim üçün nə yeni idi? Nə yadımda qaldı? Nə daha faydalı idi?)</td></tr>
<tr><td colspan="3"></td></tr>
</table>

<table>
<tr><td colspan="2">Sinfimdə və ya məktəbdə nəyi sınaqdan keçirə bilərəm?</td></tr>
<tr><td>Nəyi sınayacağam?</td><td></td></tr>
<tr><td>Nə üçün?</td><td></td></tr>
<tr><td>Bu mənə inklüziv təhsili dəstəkləmək üçün necə kömək edəcək?</td><td></td></tr>
<tr><td>Bu konsept və ya təcrübəni həyata keçirmək üçün mənə necə yardım olacaq?</td><td></td></tr>
</table>

### Variant C: Namizəd müəllimlər

| **Fərdi təhlil** | | |
|---|---|---|
| **Ümumi məlumat** | Adı | |
| | Universitet və ya kollecin adı | |
| | Proqram | |
| | Bölmə | |
| **Mən bu bölmədə nə öyrəndim?** *(Mənim üçün nə yeni idi? Nə yadında qaldı? Nə daha faydalı idi?)* | | |
| | | |
| **Bu mənə inklüziv müəllim olmamda necə yardım edəcək?** | | |
| | | |
| **Bu mənə müəllim kimi bacarıqlarımın təkmilləşdirilməsində necə yardım edəcək?** | | |
| | | |

[i] CAST, "Qiymətləndirmə üzrə top 10 UDT ipucları" (Aşağıdakı linkdən götürülmüşdür: http://castprofessionallearning.org/project/top-10-udl-tips-for-assessment/ (Son giriş tarixi 13/11/18)2018).

[ii] UNESCO IBE, "İnklüziv şagirdin qiymətləndirilməsi. Kurikulumun hazırlanması üçün təlim vasitələri" (Cenevrə: UNESCO IBE, 2017).

[iii] UNICEF, "Vebinar 11, Əlçatan məktəb və təlim mühiti - Universal Təlim Dizaynı. Texniki məlumat kitabçası."

[iv] Əsaslanır: https://www.utwente.nl/en/examination/faq-testing-assessment/assessment-of-for-as-learning.pdf və UNESCO IBE, " İnklüziv şagirdin qiymətləndirilməsi. Kurikulumun hazırlanması üçün təlim vasitələri".

[v] Əsaslanır: Xüsusi Ehtiyaclıların Təhsili üzrə Avropa İnkişaf Agentliyi. "İnklüziv quruluşun qiymətləndirilməsi. Siyasət və təcrübənin üzləşdiyi əsas problemlər", (Odense: Xüsusi Ehtiyaclıların Təhsili üzrə Avropa İnkişaf Agentliyi, 2007) .

[vi] Əsaslanır: "Müxtəlifliyin əhatə edilməsi: İnklüziv mühiti dəstəkləyən mühitin yaradılması üçün vasitələr toplusu" Banqkok: (UNESCO, 2004).

[vii] UNESCO IBE, " İnklüziv şagirdin qiymətləndirilməsi. Kurikulumun hazırlanması üçün təlim vasitələri".

[viii] Əsaslanır: "Qiymətləndirmə üzrə top 10 UDT ipucları."

[ix] http://www.teach-nology.com/gold/mathrubric2.html

[x] Əsaslanır: UNICEF, "Vebinar 12 – Müəllim, inklüziv və uşaqyönlü tədris və pedaqoqika. Texniki məlumat kitabçası".

[xi] Əsaslanır: UNESCO IBE, "İnklüziv şagirdin qiymətləndirilməsi. Kurikulumun hazırlanması üçün təlim vasitələri".